**UOT (004.83)** **Səh. (8-16)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.8**

# ŞÜUR FƏLSƏFƏSİNƏ GİRİŞ VƏ GƏLƏCƏYİN TƏHSİLİNİN PROTOOBRAZLARI

**İlham Məmmədzadə**
F.e.d., prof., AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru
e-mail: ilham_mamedzade@mail.ru
https://orcid 0009-0009-5543-3624

**Xülasə**

Süni intellekt (Sİ) fəlsəfəsi mövzusuna bir neçə məqalə və kitabın nəşri ilə ifadə olunmuş marağımız, təbii ki, fikrimizcə, bizi şüur fəlsəfəsi və Sİ haqqında biliklərin şüurumuz barəsində nə isə yeni bir şey öyrənməyə, yeni bilik əldə etməyə imkan verə biləcəyi xüsusunda düşüncələrə gətirib çıxardı. Belə bir anlayış formalaşıb ki, bu məsələnin aktuallığı yalnız fəlsəfə sahəsi ilə məhdudlaşmır və bundan başqa şüur fəlsəfəsi olmadan fəlsəfə və elmi məhz nəyin vahid bir tam halında (bunun isə, əlbəttə, ziddiyyətsiz olmadığını bəzən unudan təkcə filosoflar deyil) birləşdirdiyini aydınlaşdırmaq və başa düşmək mümkün deyil. Düşünürük ki, varlıq, ontologiya və etika problemləri şüurun mahiyyəti barədə düşüncələr, şüur və beyin haqqında biliklər olmadan filosofun onları necə dərk etdiyi nəzərə alınmadan konseptual surətdə ifadə oluna bilməz. Şüur fəlsəfəsi, həmçnin müasir elm fəlsəfəsi və fəlsəfə tarixinin, fənlərarası tədqiqatların, gələcəyin elm və təhsili haqqında təsəvvürlərin necə olmalılığının, onların (həmçnin, şüur və biliyin və s) bir-birinə necə keçdiyinin, qarşılıqlı münasibət və təsirdə bulunduğunun dərkinə gətirib çıxarır. Əlbəttə, bu məqalədə həmin problematikaya yalnız girişdən və hətta artıq bizim ön sözümüzdən bəhs edilir və bu qeyd, fikrimizcə, əhəmiyyət kəsb edir. Fəlsəfə və elmdə, təhsildə, o cümlədən, bir çox müasir elmi məktəb və cərəyanların irsi və yaradıcılığında şüurun bu cür təhlili baxımından çox şeyə yenidən nəzər salmağın vaxtı çatmışdır.
**Açar sözlər:** fəlsəfə, şüur, beyin, koqnitiv elmlər, intellekt.

# INTRODUCTION TO THE PHILOSOPHY OF CONSCIOUSNESS AND PROTOTYPES OF THE EDUCATION OF THE FUTURE

**Ilham Mammadzada**
DSc, professor, Director of the Institute of Philosophy and Sociology of ANAS
e-mail: ilham_mamedzade@mail.ru
https://orcid 0009-0009-5543-3624

**Summary**

Our interest in the topic of philosophy of artificial intelligence, which was expressed in the publication of several articles and books, naturally, in our opinion, led to reflections on the philosophy of consciousness, on what knowledge of AI can allow us to learn, and something new about our consciousness. It was understood that the relevance of this issue is not limited to philosophy alone, and moreover, without the philosophy of consciousness it is impossible to understand and comprehend what connects philosophy and science into a single whole, which is not without contradictions, which is sometimes forgotten and not only by philosophers. We think that the problems of being, ontology and ethics will not be expressed conceptually without reflections on what consciousness is without knowledge of consciousness and the brain, how a philosopher comprehends them. The phi-

losophy of consciousness also leads to an understanding of what modern philosophy of science and the history of philosophy, interdisciplinary research, ideas about science and the education of the future should be, how they transition, relate and influence each other, as well as consciousness and knowledge, etc. It is clear that this article is only about the introduction to this problematic and even about our introduction and this fixation is significant. It is time to reconsider much in philosophy and in science, education from the standpoint of such an analysis of consciousness, including in the heritage and creativity of many modern scientific schools and trends.
**Keywords:** philosophy, consciousness, brain, cognitive sciences, intelligence

## ВВЕДЕНИЕ В ФИЛОСОФИЮ СОЗНАНИЯ И ПРООБРАЗЫ ОБРАЗОВАНИЯ БУДУЩЕГО

**Ильхам Мамедзаде,**
доктор философских наук, профессор,
директор Института Философии и Социологии НАНА
e-mail: ilham_mamedzade@mail.ru
https://orcid 0009-0009-5543-3624

### Аннотация

Наш интерес к теме философии искусственного интеллекта, который выразился в публикации нескольких статей и книг, естественно, привел к размышлениям о философии сознания, о том, что знания об ИИ могут позволить нам узнать, и что-то новое о нашем сознании. Сложилось понимание, что актуальность данного вопроса не ограничивается только философией, а более того, без философии сознания не разобраться и не понять того, что соединяет философию и науку в единое целое, о чем иногда забывают, и не только философы. Проблемы бытия, онтологии и этики не выразятся концептуально без размышлений о том, что есть сознание, без знаний о сознании и мозге того, как философ осмысливает их. Философия сознания ведет и к осмыслению того, какой должна быть современная философия науки и история философии, междисциплинарные исследования, представления о науке и об образовании будущего, как они переходят, соотносятся и влияют друг на друга, также, как сознание и знание. Понятно, что в данной статье речь идет лишь о введении в эту проблематику, причем данная фиксация, на наш взгляд, значима. Настало время пересмотреть многое в философии, в науке, в образовании, в том числе в наследии и творчестве многих современных научных школ и направлений.
**Ключевые слова:** философия, сознание, мозг, когнитивные науки, интеллект

## GİRİŞ

Bir həmmüəllifimlə Sİ fəlsəfəsi ilə bağlı məqalələrimizdən biri üzərində işləyərkən o, elm fəlsəfəsinin üstünlük təşkil etdiyi dövrdə, koqnitiv elmlərin, demək olar ki, tərəqqisi dövründə, fəlsəfə tarixinə tələbatın nədən ibarət olduğunu soruşduqda qeyd etməli olduq ki, fəlsəfənin keçmişində bu gün də fəlsəfə və şüur haqqında müasir suallara cavab tapmağa, təbii və süni intellektin tutuşdurulmasına, insan cəmiyyəti, elm, təhsil və biliyin xüsusiyyətlərinin nədən ibarət olduğunu başa düşməyə kömək edə biləcək bir çox intuisiya (burada – ani və bilavasitə idrak, fəhm), təxminlər vardır. Əlbəttə, bu fikrin aktuallığı qismən də olsa qeyri-ingilisdilli fəlsəfənin elm fəlsəfəsində və beyin, Sİ, bizə bəlli prioritet təşkil edən fəlsəfə tarixi haqqında-

kı müasir elm sahəsində məlum dərəcədə geri qalması ilə izah olunur. İngilisdilli fəlsəfədə elm, intellekt və subyektivlik, koqnitiv fənlərarası elmlər adlananın sahələrin prioriteti çoxdan təsbit edilmiş və ictimai fikir və fəlsəfə tarixinin prioritetinin parçalanması baş vermiş, lakin keçmişdə də onların arasında bu cür konstruktiv qarşılıqlı təsir olmuşdur. Biz buna qnoseologiya ilə epistemologiyanın münasibəti barədə fikirləşərkən ingilisdilli elm fəlsəfəsində və bütövlükdə elmdə bu məsələlər haqqında nə düşünüldüyü ilə tanış olan zaman əmin olduq. Bu barədə «К вопросу об эпистемологии, сознании и интеллекте» // «Вопросы философии» № 9, 2024“ (“Epistemologiya, şüur və intellekt məsələsinə dair”, “Fəlsəfə məsələləri”, № 9, 2024-cü il) adlı məqaləmizdə və mənim redaktoru olduğum və həmmüəlliflərimlə yazılmış «Философия искусственного интеллекта и прообразы науки будущего» (Баку, 2024) – “Süni intellekt fəlsəfəsi və gələcəyin elminin protoobrazları”, (Bakı, 2024)) kitabında bəhs edilir. İndiki halda konkret olaraq demək olar ki, söhbət fəlsəfə tarixində (məsələn, İ.Kantın apriorizmi) məhz nələrin intellektin müasir anlayışına, həmçinin gələcəyə dair düşüncələrə imkan yaratmasından gedir. Fəqət məsələ təkcə Kantın və ya başqa bir kiminsə mirasında deyil, həm də bütün fəlsəfədədir. Zira, onda olan məhz nəyin intellekt və şüur, o cümlədən, ictimai və ya kollektiv şüur, koqnitiv elmlərin prioritetinin necə yaranması haqqında müasir biliyi dərk etməyə imkan verdiyini və fəlsəfə həmin məsələləri dərk etməkdən və şüur haqqındakı biliklərindən əl çəkməli olub-olmadığını aydınlaşdırmaq lazımdır. Bu məsələyə bizim «Философия о современности, истории и культуре (О контурах историко-культурной эпистемологии (Баку, 2020) – “Fəlsəfə müasirlik, tarix və mədəniyyət haqqında (Tarixi- mədəni epistemologiyanın konturları barəsində” (Bakı, 2020) kitabımızda da toxunulmuşdur. Fikrimizcə, fundamental sonra isə koqnitiv elmlərin prioriteti fəlsəfi biliyin, onun iqtidar və imkanlarının (o cümlədən, fənlərarası tədqiqatlara tətbiqən), lazımi qədər dəyərləndirilməməsi, fəlsəfə tarixində elm fəlsəfəsi, fəlsəfi metodologiya və təhsil fəlsəfəsinə tədricən etinasızlıq göstərilməsi nəticəsində təşəkkül tapmışdır. Məsələn, indiyə qədər milli fəlsəfə tarixlərində milli fəlsəfə və ictimai fikir tarixi prioritet bütünlük təşkil etməkdədir, bu isə təkcə o halda pozitiv sayıla bilər ki, Qədim Yunan fəlsəfəsindən ən müasir fəlsəfəyə qədər dünya fəlsəfəsindən və onda elm fəlsəfəsinin əhəmiyyətindən bixəbərliklə bəraət qazandırılmasın. Zənn edirik ki, əgər tədqiqatçı fəlsəfə ilə müxtəlif ölkələrin və mədəniyyətlərin fəlsəfə tarixləri arasında əlaqəni kəsirsə, o zaman onun fəlsəfə tarixi elmiliyini itirirərək bir növ maarifçiliyin həm kütləvi ideyalar istehlakçısına, həm də elm fəlsəfəsinə çox məhdud təsir imkanları olan variantına çevirilir .

Амма bu heç də o demək deyil ki, fəlsəfənin keçmişi, biz düşündüyümüz kimi, öz zənginliyini özü açıb göstərməyə hazırdır. Bunun üçün fəlsəfə tarixinə tamamilə başqa bir yaradıcı və innovativ yanaşma tətbiq etmək lazımdır. Həmin yanaşma isə metodologiya və şüurun, daha sonra təhsil, intellekt və cəmiyyətin nə olduğunun həm anlayışlar və konsepsiyalar, həm də bu ideyaların keçmişinin yenidən necə mənalandırıla biləcəyini izah edən yanaşmalar səviyyəsində artıq yeni dərkini ehtiva etməlidir.Axı metodologiya şüura, onun müxtəlif səviyyələrinə, həmçinin intellektə və s. nüfuz etmək imkanını gerçəkləşdirməyə şərait yaradır. Şüur haqqında bilik bizim fikirimizcə, təfəkkürümüz haqqında düşünməkdir. Onsuz oraya daxil olmaq mümkün deyil. Yalnız, bu zaman keçmişin intuisiyaları (ani fəhmləri) müəyyən mənada köhnə məsələlərin yeni dərkinə təkan olacaqdır. Əlbəttə, alimlər, hətta filosofları əməkdaşlığa dəvət edəndə belə, bununla məşğul olmayacaqlar, lakin fəlsəfə bunu etməlidir. Məsələn, biz öyrəşmişik ki, Platon və Aristotelin əsərlərində “şüur” anlayışı yoxdur, fəqət onlar ideya və təfəkkür üzərində düşünürdülər. Hazırda bir çox müasir filosoflar ona əsaslanırlar ki, keçmişdə “şüur” anlayışından əvvəl onu əvəzinə “ruh” məfhumu işlədilirdi və buna görə də çox vaxt belə bir fikir irəli sürülür ki, qədim filosoflar ruh haqqında yazarkən guya şüuru və hətta cismi (bədəni) nəzərdə tuturdular. Lakin, bizcə, əslində, əgər söhbət Platondan gedirsə, şüur həm zəka, həm dərrakə (idrak), həm də ideya deməkdir. Fəqət, söhbət Platonun dediyi ruhdan getdikdə belə aydındır ki, onsuz biz müasir fəlsəfənin, yəni elm fəlsəfəsinin, metodologiyasının və s. nə olduğunu anlaya bilmərik.Lakin Platon, Aristotel və ya Kanta olan marağımıza rəğmən, mülahizələrimizin mərkəzin-

də yerləşən onlar deyil. Söhbət fəlsəfə tarixində şüura yanaşmada təhlilin və konseptuallığın mürəkkəbliyindən, qeyri-birmənalılığından və zəruriliyindən gedir və bu yanaşma şüur haqqında fəlsəfi biliklərimizdə nəyi qaçırdığımızı, nəyi onsuz anlaya bilmədiklərimizi yalnız bilmək üçün deyil, həm də dərk etmək üçün lazımdır.

Şüur və beyin, onların qarşılıqlı təsiri və ya əlaqəsi, mürəkkəb bir məsələdir. Hərçənd qeyd etməmək olmaz ki, bəzi alimlər, məsələn, neyrobioloqlar, bu məsələni yalnız şüurun beyində yerini axtarışları ilə əvəz edərkən onu aşkarcasına bəsitləşdirirlər. Bu cür sadələşdirmə çox vaxt filosoflara da xasdır. Fikrimizcə, bu biliyin olmaması onların qarşılıqlı əlaqəsinin insanın, onun ətraf mühitlə, özü ilə əlaqələrinin və s. dərk edilməsində rolunun inkar edilməsinə bəraət qazandıra bilməz. Odur ki, fəlsəfə tarixçiləri, görünür, varlıq və şüurun əski təfsirlərinin müasir alim və filosofların biliklərinə necə təsir etdiyi və fəlsəfənin əsas məsələsinin mahəyyəti, indi onu necə təfsir etmək lazım olduğu ilə maraqlanmalıdırlar.Eyni zamanda, qeyd edilməlidir ki, sovet marksizminə də onu sadələşdirmək (əlbəttə ki, hamıya deyil. Məsələn, götürək D.Lukaçı), onu ancaq inikas kimi izah etmək səciyyəvi olduğuna rəğmən, hətta keçmişdə şüur çox vaxt çoxqatlı, çoxlaylı, mürəkkəb, yalnız varlıqla qarşılıqlı əlaqələri, deyil, həm də zəkaya və fəallığa, fəaliyyətə, nələri isə dərk etmək qabiliyyətnə malik subyekti, fərdin biliyin şüuru dəyişdirdiyinin təsdiqini öncədən sezərək necə və nə dərəcədə fəal ola biləcəyinin dərkini ehtiva edən fenomen kimi başa düşülürdü.

Əlbəttə, bəzi indiki alimlərə elə gələ bilər ki, bu fəallıq və onun təsir gücü şişirdilmişdir. Bunu tamamilə inkar etmək çətin ki, düzgün olardı. Müasir koqnitiv elmdə fərdi və sosial kvalia[1] ideyasının işlənməsi bəlkə də qeyri-aşkar surətdə bu kontekstə əsaslana bilər. Bizim fikrimizcə, kvalia prinsipcə, fərdi şüurun obyektə təsiri ilə bağlıdır. Bu məsələlərə biz məqalələrimizdə, kitablarımızda diqqət yetirmişik. Arif Bünyatovla «Milliliyin, Milli Özunudərkin Qeyri-Səlis Məntiq Kontekstində Epistemoloji Xususiyyətləri», Bakı, «Елм və Təhsil», 2023, 215 səh.) adlı kitabımızı qeyd edək. Bu qəbildən olan oxşar məsələlərə son vaxtlar bir çox məqalələr, məsələn, rus fəlsəfi ədəbiyyatında, həmin "Fəlsəfə məsələləri"ndə, həsr edilmişdir. Məsələn, T.M. Ryabuşkin qeyd edir ki, transsendental epistemologiya nöqteyi-nəzərindən şüurun genezisi problemi, şüur və beyin arasındakı münasibətin də idrakı üçün əhəmiyyət kəsb edən şüurlu təcrübənin strukturlarının dərk olunmasının mümkünlüyü şərtlərinin aşkar və müəyyən edilməsi aktualdır.(Т.М.Рябушкин «Трансцендентально-феноменологический анализ сознания: восприимчивость и производительность субъекта как условия возможности опыта»// «Вопросы философии, 2023, №6. С. 104- T.M. Ryabuşkin "Şüurun transsendental-fenomenoloji təhlili: təcrübənin mümkünlüyü üçün şərait kimi subyektin qavrama qabiliyyəti və məhsuldarlığı" // "Fəlsəfə məsələləri, 2023, № 6. səh. 104). O, prinsipcə D.Hyumun ( David Hume), İ.Kantın, E.Hüsserlin, M.Haydeggerin və s. yaradıcılığına müraciət edir. Fikrimizcə, biz cətin ki, beyin və şüur arasındakı qarşılıqlı əlaqənin tam palitrası və dərinliyini dərk edə biləcəyik, fəqət cəhdlər, görünür, davam etdiriləcəkdir. Lakin məsələ təkcə onların qarşılıqlı əlaqəsindən deyil, həm də şüurun insanla, elmlə, təhsillə, gender münasibətləri ilə, fərdin fəallığı, fəaliyyəti ilə bağlı olan hər şeyə təsir göstərməsindən və onların ona əks-təsir etməsindən ibarətdir. Yeri gəlmişkən, belə qarşılıqlı əlaqənin nəticələri həm fərd, həm də cəmiyyət üçün həm pozitiv, həm də neqativ ola bilər.

Burada onu qeyd edək ki, məsələn, şüur dəyər xarakteri daşıyır, bizim uyğunlaşa bilməməyimizin dərk edilməsi, bizcə, bir çox şeylərdə, o cümlədən, beyin tədqiqatlarında özünü göstərən səriştəsizliyimizin başa düşülməsi ilə bağlıdır. Daha sonra, anlamaq şüurun nə olduğunu və dərketmənin elmdə, təhsildə və s. təşəkkül tapmış dildə ifadə olunanlarla necə bağlı olduğunu və yeri gəlmişkən, elmi dildə ifadə

[1] Kvalia (latınca qualitas - "xüsusiyyət, keyfiyyət" ) – fəlsəfədə, ilk növbədə, ingilisdilli analitik şüur fəlsəfəsində hər cür qəbildən sensor, hissiyyat hadisələrini ifadə etmək üçün istifadə olunan, 1929-cu ildə Amerika filosofu K. I. Lyuis (ing.Clive Staples Lewis) tərəfindən təqdim edilmiş termindir. Qualia "bizim üçün mümkün olan ən adi şeyi işarə etmək üçün qeyri-adi bir istiladır: şeylərin bizə necə göründüyünü" ( Dennet, D. *Quining Qualia* ). Daha dəqiq fəlsəfi terminlərlə desək, qualia hissi təcrübənin xassələridir. (https://ru.wikipedia.org/wiki/Квалиа)

olunanların bütövlükdə dilə təsirində, təhsildə, əxlaqda və s. hansı yeri tutduğunu dil vasitəsi ilə ifadə etmək, bildirmək (şüur sahəsi) deməkdir. Beləliklə, süur haqqında mühakimə yürüdərkən biz daim şüurun məzmunu, göstərillən səylərin və hərəkətlərin motivasiyası və məqsədi ilə və nəhayət, təhtəlşüura sıxışdırılıb keçirilmə ilə, şüurda ziddiyyətsiz dünya mənzərəsinin yaradılması ilə – bütün bunlar şüurda elmi və fəlsəfi dildə ifadə olunanların nə üçün təhsil, əxlaq, mədəniyyət və s. dili üçün çox mühüm olmadığını izah edir – qarşılaşacağıq.

Ona görə də görünür, qeyd etmək düzgün olardı ki, həmin məsələ müxtəlif zamanlarda diqqət mərkəzində olmuş, gah xüsusi populyarlıq dövrləri yaşamış, gah da ona yetirilən diqqət birdən-birə azalmışdır. Hətta xatırlamaq olar ki, XX əsrin əvvəllərində materiya və şüurla bağlı bu ideyalar çox aktual olmuşdur. Amma XX əsrin 60-cı illərindən başlayaraq mentalitetə, mentallığa, insanın daxili aləminə, biotibb sahəsində ciddi nailiyyətlər əldə olunmasına, beyin haqqında biliklərin artmasına marağın aktuallaşmasından sonra şüurun mahiyyətinin, onun ictimai və humanitar elmlərdə rolunun lazımi dərəcədə düzgün dəyərləndirilməməsi vüsət alır və düşünürük ki, buna görə də şüur fəlsəfəsinin aktuallaşdırılmasına yeni və ya növbəti zərurət yaranır. Vaxtı ilə XX əsrin 40-cı illərinin sonlarında G. Raylın "Şüur anlayışı" kitabının bu problemin yenidən aktuallaşmasına verdiyi töhfəni yada salaq. Həmin illərdə o, elmdə şüur mövzusunun işlənməsini çox qüvvətləndirdi, lakin biz bunu, təbii ki, sonradan öyrəndik.

Bununla belə, şüura həsr olunmuş əsərlər olmadığından fəlsəfənin elmi statusu tərəddüdə salındı, əslində isə bir çox ölkələrdə məhz bu baş verdi. Ona görə də görünür, fəlsəfədə həmin mövzunun əhəmiyyətə malik olduğu və eyni zamanda, ziddiyyətli xarakter daşıdığı iddia edilməlidir. Burada ziddiyyət ondan ibarətdir ki, fəlsəfənin beyin haqqındakı elmlərdə, sonuncuların isə fəlsəfədə hansı işlərin görüldüyü barədə heç də həmişə dəqiq və mötəbər məlumatı olmur. Bir çoxları "şüur mövcuddurmu?", "o, özünü tədqiqat obyekti kimi dərk edə bilərmi?" məsələləri barədə mübahisə edir, digərləri isə ruh və dinin daha vacib olmasından çıxış edirlər və s. Biz isə bu məqaləmizdə yalnız şüurun, görünür, təbii-tarixi surətdə təşəkkül taparaq və bununla belə, insana, onun mühiti, seçimi və intellektinə təsir kanallarına (bilik, təcrübə, təhsil və s.) malik olaraq ona necə tədricən və uzunmüddətli təsir göstərdiyini dəqiqləşdirəcəyik.

**Bir daha şüur fəlsəfəsi haqqında**

Şüur fəlsəfəsi aktual olub, onun barəsində neyrofiziologiya, biologiya və neyroanatomiyanın və i.a. müvafiq empirik məlumatlar vermədiyindən çıxış edərək şüurun beyində mövcudluğunu inkar edənlər də düşünürlər. Məsələn, bu kontentə tanınmış Avstraliya-Amerika filosofu D.Dennet əsaslanır və beə hesab edir ki, buna rəğmən, şüur informasiya axınlarının beyindən nitq sisteminə, yəni dildə ifadə olunmaqlığa necə keçdiyini izah edən və ya izah etməli olan proseslərin məzmunu deməkdir. Hərçənd, onun özü xəbərdarlıq edirdi ki, bununla belə, dilin rolunu şişirtmək olmaz. Bu haqda o, özünün " İzah olunmuş şüur" (1993) kitabında yazır. (Dennet. D.C. Consciousness Explained/ London: Penguin Books, 1993, 511 s. – S.434). O, həmçinin qeyd edirdi ki, onun əsərlərinə "...əzəli "Kontent və Şüur" layihəsinin inkişafı kimi baxmaq lazımdır. (V.V. Vasiliev Deniel Dennett: İnsan və Filosof" // "Fəlsəfə məsələləri", 2024, № 8, səh. 19). Digər müəlliflər, məsələn, həmin T.M. Ryabuşkin, şüurlu təcrübə ola biləcək təcrübəyə xüsusi əhəmiyyət verir. D.İ. Dubrovski subyektiv reallıq ilə beyin prosesləri arasında əlaqə hadisələrinin xarakteri haqqında mühakimə yürüdür və hesab edir ki, informasiya yanaşması bu əlaqəni izah etməyə və əsaslandırmağa imkan verəcəkdir. (Д.И. Дубровский. Значение нейронаучных исследований сознания для разработки общего искусственного интеллекта (методологические вопросы) // «Вопросы философии» 2022. № 2, с.83-84 . D.İ. Dubrovski. Şüurun neyroelmi tədqiqatlarının ümumi süni intellektin yaradılması üçün əhəmiyyəti (metodoloji məsələlər) // "Fəlsəfə məsələləri", 2022. № 2, səh. 83-84). Beləliklə, bəziləri, hətta, Dennet kimi, şüurun beyində yerləşdiyini inkar etdikdə belə, buna baxmayaraq bizim kimi, hesab edir ki, bu, şüur haqqında düşüncələri aradan qaldırmır, əksinə, şərtləndirir. Eyni zamanda, bu halda, fikrimizcə, belə bir

məsələ xüsusunda da düşünmək lazımdır: insan beynində "yerləşən" nəsə, yaxud hansısa konkret fenomen varmı, yoxsa bu, sadəcə olaraq necə düşündüyümüzü, xaricdən gələn informasiyanı necə emal etdiyimizi və onu ünsiyyət əsnasında necə ötürdüyümüzü və nəhayət, düşünməyi necə öyrətdiyimizi anlamaq üçün lazım olan bir metaforadır? Fikrimizcə, düşüncəli subyektin qərar qəbul etmək üçün məlumatları emal etmək və sonra onun nəticələri barədə ətraflı fikirləşmək qabiliyyəti kimi şüur anlayışına aşkar tələbat vardır. Ona görə də əgər şüur hətta istiarədirsə insan üçün olduqca faydalı, onun inkişafına, elm və biliklərin, o cümlədən özü haqda, öz cismi, fəaliyyəti və s. barədə, təşəkkülünə imkan yaradan məcazdır.

Məfhum kimi şüur, görünür, insanın beynində onun diqqətini cəlb etmək uğrunda bir neçə layihənin, hiss kanalları ilə gələnlərin bir neçə izahının rəqabət apardığı zaman işlədilən mürəkkəb informasiya emalı sistemini dərk etməyə imkan verir və bu halda insanın subyektivliyi, ola bilsin, yalnız uzunmüddətli perspektivdə özünü göstərə bilər. Lakin bu cür mürəkkəblik bir çox alimlərin filosoflara və əksinə, filosofların alimlərə qarşı irəli sürdükləri insan zəkası və ya ictimai elmlər və s. haqda bəsitləşdirilmiş təsəvvürlər xüsusunda çox vaxt haqlı, yerli iddialarını aradan qaldırmır.Və həqiqətən də insanın seçiminin çox vaxt onun iştirakı olmadan baş verdiyini təsdiq edən təcrübələr vardır (məsələn, B.Libetin apardığı eksperimentlər). Məsələn, insanın necə təşəkkül tapmasına, nələrin onun seçimini müəyyən etdiyinə əsaslı surətdə təsir göstərən keyfiyyətli subyektivlik mentallığı ilə və hətta kollektiv mentallıqla müəyyənləşdirilən başqa misallar da vardır. Məsələn, bu barədə M.A. Sekatskaya "B. Libetin təcrübələrinin şərhləri timsalında neyroelmdə iradə azadlığı tədqiqatlarının fəlsəfi əhəmiyyəti" məqaləsində bəhs edir ("Fəlsəfə məsələləri", №7, 2020 - М.А. Секацкая. «Философская значимость исследований свободы воли в нейронауке на примере интерпретаций экспериментов Б.Либета, «Вопросы философии» №7, 2020). Sekatskayanın qeyd etdiyi kimi, Libetin özü etiraf edir ki, hərəkətlər şüursuz surətdə (unconscious) başlayır,"... lakin biz həyata keçirilməsini istəmədiyimiz hərəkətlərə şüurlu surətdə yol verməyə bilərik." (Həmin məqalə səh.116).

"Libetin nöqteyi-nəzərindən, biz şüurlu olaraq, öz iradəmizlə heç bir hərəkətə başlaya bilmərik - onların hamısı şüursuz surətdə başlayır, lakin həyata keçirilməsini istəmədiyimiz hərəkətlərə şüurlu şəkildə surətdə yol verməyə bilərik". Hərçənd etiraf edək: bir çox alimlər əmindirlər ki, fəlsəfi təfsirdən filosofun introspeksiya dərəcəsini, subyektivliyini aradan qaldırmaq çətindir, guya alim bundan azad ola bilər. Onlar fundamental, koqnitiv və humanitar elmlər arasındakı fərqlər barəsində təsəvvürlərini də anlayışlarını da bunun üzərində yaradırlar. Yeri gəlmişkən, fərqlərin etirafından heç də fəlsəfi və ya humanitar biliyin məxsusiliyi irəli gəlmir. Bundan başqa, burada hələ də şüuru izah etmək, onun beyin və bədənlə əlaqəsini və mahiyyətcə, onların insan seçiminə təsirini anlamaq cəhdləri olaraq qalan süni və insan intellektinin müqayisəli təhlili kömək edə bilər.

Əlbəttə, şüur və intellekt neyron şəbəkələrinin bu və ya digər qarşılıqlı təsiri sayəsində formalaşır. Müxtəlif, ümumi, mütəhərrik, formalaşmış intellekt növləri vardır və onların hər biri məntiq, təcrübə və təhsildən faydalanaraq ayrı-ayrı problemləri həll etmək üçün müxtəlif qabiliyyətlərlə bağlıdır.Görünür, şüur həm də müxtəlif insan intellektlərinin qarşılıqlı asılılığını müəyyən edir (iştirak edir). Fizik və neyrobioloq K.Koxun "Şüur nədir? Alimlər uzun müddət filosoflara əzab verən sirri açmağa başlamışlar" (К.Кох. «Что есть сознание? Ученые начали распутывать тайну, долго мучавшую философов», 2018) məqaləsinə və onun tamamilə yeni, 2024-cü ildə nəşr edilmiş çoxmənalı ada malik «Тогда я – это и есть весь мир: что такое сознание и как его расширить» ("O zaman mən – məhz bu, bütün dünyadır: şüur nədir və onu necə genişləndirmək olar?") kitabına diqqət yetirək.

Bununla belə, Dennettlə mübahisə apararkən sanki başqa mövqelərdən çıxış edərək şüura elmi və fəlsəfi yanaşmaları bir-birindən fərqləndirən başqa bir Avstraliya-Amerika filosofu D.Çalmersin baxışını da qeyd etməliyik. Biz bu fikirlə razıyıq ki, elm fəlsəfəsini elmdən fərqləndirmək gərəkdir. Hərçənd etiraf etmək lazımdır ki, bu proses elmi fəlsəfə yaradılması (onun "el-

miləşdirilməsi") maskası altında aparılır, onu, bir qayda olaraq hakim mövqe tutan elmə ondan mərkəzi mövzuları və anlayışları əxz edən əlavəyə, qoşmaya çevirməklə baş verir. (Bu barədə «Культурно-историческая эпистемология: философские разговоры. К юбилею Бориса Исаевича Пружинина», «РОССПЭН», М. 2024 - "Mədəni-tarixi epistemologiya: fəlsəfi söhbətlər. Boris İsayeviç Prujininin yubileyinə həsr olunur", "ROSSPEN", Moskva, 2024-cü il, kitabında baxın).

Zaман-zaман bu rolda fizika, bəzən riyaziyyat çıxış etmiş, indi isə onu koqnitiv elmlər oynayır. Fikrimizcə, indiki dövrdə bu, heç də ən yaxşı yanaşma deyil, elmlər və yanaşmalar, ən əsası isə bu rola iddialı olan alim və institutlar bir qədər çoxdur. Düşünürük ki, bu gün elm fəlsəfəsinin ən mühüm mövzusu şüurdur, amma bu, beyin probleminin koqnitiv elmlər üçün aktuallığını aradan qaldırmır. Məhz bu səbəbdən də Çalmers onları fərqləndirərək şüurun fəlsəfi problemlərini çətin, elmi problemlərini isə asan adlandırır. Onun üçün çətinlik bu suallara cavab verməyin necə mümkün olduğunun başa düşülməməsindən ibarətdir. Elmlərin metodları heç də onlarla məşğul olmağın çətin olmadığına görə asan deyi, onlar mürəkkəb, çox şey, məsələn, uzaqgörənlik, bəsirət, hazırlıq və fərasət, fəhm, ciddi xərclər tələb edən ola bilər. Və burada fəlsəfi metaforalar da öz rolunu oynaya bilər. Beləliklə, asan problemlər beynin informasiyanı necə emal etməsi, beynin müxtəlif alt sistemlərinin bir-biri ilə qarşılıqlı əlaqədə necə bulunması, elmi təcrübələrin necə qoyulmalı olması, beynin hansı informasiyaya üstünlük verəcəyinin necə müqayisə edilməsi və s. bu kimi problemlərdir. Filosoflar, yəqin ki, şüur və cismin nə olduğu, insanın gördüyü və düşündüyü bütün hər şeydə, iş və fikirdə onların qarşılıqlı əlaqəsinin rolunun nədən ibarət olduğu və şüurun seçimi necə şərtləndirməsi kimi çətin problemlər üzərində çalışmalıdırlar.Bu, ümumiyyətlə, hər cəhətdən çətin olan, demək olar ki, metafizik məsələ elmi problemlərin həllində yardımçı ola bilər. Xaırladaq ki, Çalmersin "Dərk edən ağıl" (1996) kitabı təkcə filosofların deyil, həm də alimlərin də çoxlu müsbət rəyini qazanmışdır. Dennett və Chalmersin yanaşmaları, fikrimizcə, şüur fəlsəfəsinin aktual olduğunu göstərir, hərçənd onlar beynin elmi tədqiqindən fərqlənir, fəqət şüurun zəkamıza, təfəkkürümüzə necə təsir göstərdiyini, şüuru nəyin və necə dəyişdirdiyini və s. müəyyənləşdirmək üçün əsas təşkil edərək öz funksiyasını yerinə yetirir. Gördüyümüz kimi, söhbət şüur haqqında fəlsəfi biliklərdən və onların beyin haqqındakı elmlərin əldə etdiyi məlumatların dərk edilməsi və yenidən mənalandırılmasındakı rolundan gedir. Türkiyə filosofu M.Doğanın bu problemlərə həsr olunmuş "Süni intellekt və bilgi problemi" kitabını qeyd edək (Mehtap Doğan. "Yapay Zeka ve Bilinc Problemi" İstanbul "Cizgi" 2023).

Onu da qeyd edək ki, fəlsəfə metaforalardan istifadə edir, ondan ayrılmış elmlər isə onlardan bir növ imtina etməyə çalışalar da bu istiarələrdən istifadə edir. İş beyinlə bağlı olan zaman, onlar yenidən metaforalara müraciət etməli olur. Məsələn, neyrobiologiyada "beyin bir kompüterdir" metaforasından, ya da analogiyalardan və ya emercentlik anlayışından istifadə edilir. Və ən əsası, istiarələr elmi zənginləşdirir və çox vaxt kəşflərə səbəb olur. Yeri gəlmişkən, daha sonra bu metaforalardan fəlsəfə çox dəfə istifadə edir. Məsələn, filosoflar və alimlərin şüurun necə yarandığı barədə düşünərkən həm güclü, həm də zəif emercentlik (sadə elementlərin qarşılıqlı təsirdə bulunaraq ayrı-ayrı elementlərdən qat-qat mürəkkəb bir nəsnə yaratması hadisəsi) anlayışından istifadə edirlər. (M.Кобб. «Мозг: биография» «Бомбора», М.2022, с. 504 - M. Kobb "Beyin: tərcümeyihal" "Bombora", M.2022, səh.504). Emercentliyi izah və ya rədd etmək üçün mükəmməl bir nəzəriyyə yaratmağa cəhd göstərən neyrobioloqlardan fərqli olaraq filosoflar hazırda ona münasibətlərinə görə materialistlərə və idealistlərə bölünürlər, birincilərdə o, zəif, ikincilərdə isə güclüdür. Bir halda, zəif olanı şüurun tədricən təkamüli inkişaf etməsinin etirafı ilə güclü olanı isə şüurun Allah tərəfindən "qəfildən" yaradılması ilə bağlıdır. Hərçənd sonra fərqi yoxdur, şüurun inkişafının məhz necə getdiyi ilə bağlı sual ortaya çıxır. Zira onun xarici təkan nəticəsində yaranması və ya meydana çıxması problemi şüurun sonrakı təşəkkülü və dəyişməsinin konseptual surətdə dərk edilməsi məsələsini aradan qaldırmır.

**Şüur haqqında bilik və gələcək təhsilin protoobrazları haqqında**

Fikrimizcə, şüur məsələsi insan, o cümlədən şüur haqqında biliyin necə inkişaf etməsi, ondan başqa sahələrdə necə istifadə edilməli olması ilə sıx bağlıdır. Hərçənd, deyəsən, alimlər şüurun bulunduğu yeri tapa bilmir və onun necə yarandığı barədə suala cavab verməkdə çətinlik çəkirlər. Onu da qeyd edək ki, süni intellektin inkişafı və onun imkanları dünyanın ayrı-ayrı regionlarında, bölgələrində elmdə müəyyən geriliyi şərtləndirir, lakin həm də regional elmi inqilab üçün imkanlar yaradır və bu məsələyə əvvəlki bəzi məqalə və kitablarımızda toxunmuşuq. Ehtimal ki, bu geriləmə təkcə istifadəçiyə çevrilməyə və yalnız ictimai və humanitar problemlərlə, ancaq regional kontekstlə əlaqəli bağlı nələrləsə məşğul olmağa gətirib çıxarır. Fəqət xarici aləmə, elmin inkişafına bu cür biganəlik orada nələrin baş verdiyinin dərk olunmaması, geriliyin yeni formalarına gətirib çıxarması və bütün təhsil sistemin tənəzzül etməsi təhlükəsi yaradır.

Bir halda ki, elmi və fəlsəfi metaforalar şüur haqqında biliklərin, ümumiyyətlə biliklərin bizə öz özgünlüyümüzü, idenikliyimizi itirmədən xarici aləm və öz (batini) dünyamızla qarşılıqlı əlaqədə bulunmağımıza necə yardım etdiyi barədə fikirləşməyə imkan yaradırsa, onda biz şüur və ondan asılı olan, ona təsir edən hər şey haqqında düşünməli və bu barədə biliklərimizə əlavələr etməliyik.Bax, M.Kobb da fikrimizcə, haqlı olaraq qeyd edir ki, "Beyin bizim hərəkətlərimizi yerinə yetirmək üçün bir-biri ilə qarşılıqlı surətdə əlaqədə bulunan və xarici dünya ilə əlaqəyə girən mürəkkəb neyron şəbəkələrindən ibarətdir" (Sözügedən kitab, səh.502). Başqa sözlə, şüur haqqında biliklər, görünür, bizə həm elmlərin, həm də, o cümlədən, ictimai elmlərin inkişafı üçün stimulları itirməməyə imkan verə bilər. Şüur anlayışı, əslində, elmə elmlər arasında əlaqəni qaytarmağa, onlar arasındakı uydurma sərhədləri dağıtmağa və yeni biliyin fənlərarası tədqiqatlarda yarandığını anlayaraq onlara keçməyə imkan verən qüvvədir.

Fikrkmizcə, o da böyük əhəmiyyətə malikdir ki, şüur məfhumu elə həmin ictimai elmlərə müəyyən dayanıqlıq verir, onlar üçün koqnitiv elmlər sahəsinə yol açır. Səbəbsiz deyil ki, şüur bilik axtarışı, cəmiyyət, birlik, fəlsəfə haqqında, nəyin əsl ictimai, kollektiv şüurun mahiyyətini təşkil etdiyi barədə və s. elmi-fəlsəfi biliklərin axtarışına sövq edir. Burada insanla robotu müqayisə edərək şüur və cismin (bədənin) qarşılıqlı əlaqəsi və təsiri üzərində düşünməyə çalışan D.Çalmersin "Solan kvalia", "Atlama kvalia" və ya "Aniyən yoxa çıxan kvalia" xəyali təcrübələrini qeyd etmək yerinə düşərdi. Biz isə hesab edirik ki, bu cür eksperimentlər şüur və biliyin insanların qarşılıqlı əlaqəsi və təsirində, o cümlədən, elmi təcrübələrdə, elmi fəaliyyətin təşkilində, alimlərin hazırlanmasında və s. oynadığı rolu anlamağa kömək edə bilər. Bunsuz fəlsəfə keçmişin bu və ya digər filosofunun nə ilə məşğul olduqları və keçmişin bu günə bir çox cəhətdən süni şəkildə köçürülməsi haqda məlumatlar toplusuna, həqiqətin nəsihətlər və ümumi müddəalar toplusu kimi başa düşülməsinə çevirilir. Şüur haqqında biliklər olmadan, şüurla beyinin, o cümlədən, ictimai şüurun onlarla əlaqəsi haqqında suallara cavab vermək imkanı olmadan fəlsəfə cavabı, indiki zamandan, fərd, dünya (bu sıranı kifayət qədər davam etdirmək olar) haqqında həqiqi biliyin nə olduğu barədə suala cavabın aranmasından ayrıraraq keçmişdə axtaracaq və nəhayət, sabahın təhsili haqqında. Əlbəttə, burada düşünüş iki istiqamət üzrə gedə bilər: gələcəkdə nəsə baş verəcək və onu ölçmək və təxmin etmək olar, yaxşı və ya yaman tərəfə müəyyən keyfiyyət dəyişiklikləri də olacaq. Fəqət biz düşünürük ki, bizi mövcud olandan keyfiyyətcə daha yaxşı müasir təhsil sistemi əldə etmək üçün prosesi necə idarə etmək lazım olduğu maraqlandırır. Onun dəyişməsini gələcəyin elmi haqqında ideya və biliklərlə əlaqələndirmək gərəkdir. Hesab edirik ki, gələcəyin elmi süni intellektlə, fənlərarası tədqiqatlarla gözdən pərdə asmaq üçün deyil, şüur haqqında biliklərlə, koqnitiv, lakin həm də şüur haqqında fəlsəfi və s. biliklərlə həqiqətən bağlı olacaq. Əlbəttə, təşkilati qərarlar, ən mükəmməl, istedadlı alimlər uğrunda universitetlər arasında rəqabətli mübarizə, elmi işlərin qeyri-rəsmi dəyərləndirilməsi lazımdır, fəqət bu, artıq başqa məsələdir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Koch C. What is Consciousness? Scientists are beginning to unravel a mystery that has long vexed philosophers /C.Koch // Nature 2018-557 p. 8-12
2. Mehtap Dogan «Yapay Zeka ve Bilinc Problemi» Istanbul «Cizgi» 2023
3. Мамедзаде И.Р. «Философия искусственного интеллекта и прообразы науки будущего» Баку, 2024.
4. Bunun haqqinda kitabda «Культурно-историческая эпистемология: философские разговоры К юбилею Бориса Исаевича Пружинина», «РОССПЭН», М. 2024
5. "Epistemologiya, şüur və intellekt məsələsinə dair", "Fəlsəfə məsələləri", № 9, 2024-cü il
6. "Süni intellekt fəlsəfəsi və gələcəyin elminin protoobrazları", (Bakı, 2024)
7. О контурах историко-культурной эпистемологии (Баку, 2020)
8. Arif Bünyatov: «Milliliyin, Milli Özunudərkin Qeyri-Səlis Məntiq Kontekstində Epistemoloji Xususiyyətləri», Bakı, «Elм və Təhsil», 2023, 215 səh.
9. "Fəlsəfə məsələləri", 2023, № 6. səh. 104
10. Dennet. D.C. Consciousness Explained/ London: Penguin Books, 1993, 511 s. – S.434
11. V.V. Vasiliev Deniel Dennett: İnsan və Filosof" // "Fəlsəfə məsələləri", 2024, № 8, səh. 19
12. Д.И. Дубровский. Значение нейронаучных исследований сознания для разработки общего искусственного интеллекта (методологические вопросы) // «Вопросы философии» 2022. № 2, с.83-84
13. D.İ. Dubrovski. Şüurun neyroelmi tədqiqatlarının ümumi süni intellektin yaradılması üçün əhəmiyyəti (metodoloji məsələlər) // "Fəlsəfə məsələləri", 2022. № 2, səh. 83-84)
14. M.A. Sekatskaya. "B. Libetin təcrübələrinin şərhləri timsalında neyroelmdə iradə azadlığı tədqiqatlarının fəlsəfi əhəmiyyəti" məqaləsində bəhs edir ("Fəlsəfə məsələləri", №7, 2020
15. М.А. Секацкая. «Философская значимость исследований свободы воли в нейронауке на примере интерпретаций экспериментов Б.Либета, «Вопросы философии» №7, 2020).
16. К.Кох. «Что есть сознание? Ученые начали распутывать тайну, долго мучавшую философов», 2018
17. «Культурно-историческая эпистемология: философские разговоры. К юбилею Бориса Исаевича Пружинина», «РОССПЭН», М. 2024
18. "Mədəni-tarixi epistemologiya: fəlsəfi söhbətlər. Boris İsayeviç Prujininin yubileyinə həsr olunur", "ROSSPEN", Moskva, 2024-cü il.
19. Mehtap Doğan. "Yapay Zeka ve Bilinc Problemi" İstanbul "Cizgi" 2023
20. М.Кобб. «Мозг: биография» «Бомбора», М.2022, с. 504
21. M. Kobb "Beyin: tərcümeyi-hal" "Bombora", M.2022, səh.504



**Rəyçi:** **f.e.d. Dilarə Mövsümzadə**

**Göndərilib: 11.02.2025** **Qəbul edilib: 25.02.2025**